## AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**Q Ə R A R**

**№**045/296

**Bakı şəhəri** "17" oktyabr **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-cü il 9-13 oktyabr tarixli rəsmi məlumatlarına əsasən, Belçika Krallığının Flandriya (Vlaanderen) əyalətində, Almaniya Federativ Respublikasının Şimali Reyn-Vestfaliya (Nordrhein-Westfalen) vilayətində blutanq, İsveçrə Konfederasiyasının Bern (Bern) inzibati ərazi vahidində, İtaliya Respublikasının Sardiniya (Sardegna) regionunda epizootik homorraji, Polşa Respublikasının Lodz (Lodzkie) inzibati ərazisində, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Cənubi Dakota (South Dakota), Minnesota (Minnesota), Montana (Montana), Yuta (Utah) ştatlarında isə yüksək patogen quş qripi (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəlikdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Belçika Krallığının Flandriya əyalətində, Almaniya Federativ Respublikasının Şimali Reyn-Vestfaliya vilayətində blutanq, İsveçrə Konfederasiyasının Bern inzibati ərazi vahidində, İtaliya Respublikasının Sardiniya regionunda epizootik homorraji, Polşa Respublikasının Lodz inzibati ərazisində, ABŞ-ın Cənubi Dakota, Minnesota, Montana, Yuta ştatlarında YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Belçika Krallığının Flandriya əyalətində və Almaniya Federativ Respublikasının Şimali Reyn-Vestfaliya vilayətində, zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatın 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** İsveçrə Konfederasiyasının Bern inzibati ərazi vahidindən və İtaliya Respublikasının Sardiniya regionundan bütün növ diri gövşəyən heyvanların, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.7-ci Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**4.** Polşa Respublikasının Lodz inzibati ərazisində və ABŞ-ın Cənubi Dakota, Minnesota, Montana, Yuta ştatlarında, zonalaşma prinsipi nəzərə alınmaqla, YPQQ xəstəliyinin baş vermiş ərazi vahidinə daxil olan təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**5.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci və 4-cü bəndlərində adıçəkilən inzibati ərazi vahidlərinin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**6.** Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərində sadalanan inzibati ərazi vahidlərindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**7.** Bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərinin icrasının təmin edilməsi üçün, habelə sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərindən gələn, eyni zamanda, həmin inzibati ərazi vahidlərindən tranzitlə keçib respublikamıza daxil olan nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**8.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**9.** Bu qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin.

**10.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer